DOI: https://doi.org/10.36719/2663-4619/89/212-217

**Nigar Məmmədova**
Bakı Dövlət Universiteti
magistrant
memmedovanigar@yandex.ru

# AZƏRBAYCAN HÜQUQ SİSTEMİNDƏ MƏHKƏMƏ AKTLARININ TƏSNİFATINDA ƏSAS MEYARLAR

## Xülasə

Məqalədə məhkəmə aktı anlayışı geniş və dar mənada araşdırılmışdır. Məhkəmə aktlarının müxtəlif meyarlara görə təsnifatı verilməyə çalışılmışdır. Təsnifat aparılarkən bir sıra müəlliflərin təsnifatları nəzərdən keçilmişdir. Həmçinin Azərbaycan Respublikası Qanunveriliyinə də istinad edilərək məhkəmə aktı növləri xarakterizə edilmişdir. Təsnifatlarla bağlı mübahisəli məsələlərə diqqət verilmişdir. Həmin məsələlərə ölkə qanunvericiliyinə uyğun münasibət bildirilməyə çalışılmışdır. Məhkəmənin hüquq yaradıcı subyekt olması məsələsi təhlil edilmişdir.

***Açar sözlər:*** *məhkəmə aktı, məhkəmə hüquq-tətbiqi aktları, məhkəmə təfsir aktları, məhkəmə hüquqyaradıcı aktları, yekun məhkəmə aktı*

**Nigar Mammadova**
Baku State University
master student
memmedovanigar@yandex.ru

# The main criteria in the classification of judicial acts in the legal system of Azerbaijan

## Abstract

The article examines the concept of judicial act in a broad and narrow sense. An attempt was made to classify judicial acts according to various criteria. During the classification, the classifications of a number of authors were reviewed. Also, referring to the Legislation of the Republic of Azerbaijan, the types of judicial acts were characterized. Controversial issues related to classifications have been addressed. We have tried to express an attitude to those issues in accordance with the country's legislation. The question of the court being a law-creating subject has been analyzed.

***Keywords:*** *judicial act, judicial law-enforcement acts, judicial interpretive act, judicial legislative acts, final judicial act*

## Giriş

Müasir dövrdə vətəndaş və təşkilatların azadlıq, hüquq və qanunla qorunan maraqlarının müdafiəsinin əsas vasitəsi kimi məhz məhkəmə müdafiəsi çıxış edir. Bu şərtlər daxilində məhkəmə hakimiyyətinin yükü də kifayət qədər artmışdır ki, nəticə etibarı ilə müxtəlif məhkəmə aktlarının rolu da artmışdır. Buna müvafiq olaraq, çoxsaylı məhkəmə aktlarının çıxarılması onların müəyyən sisteminin yaradılması zərurətini yaratmışdır. Məhkəmə aktları bir növ hüquqi akt olduğu üçün məhkəmə aktları sistemi hüquqi aktlar sistemində alt sistem olacaqdır.

Məhkəmə aktı dedikdə, qanunla müəyyən edilmiş səlahiyyəti daxilində məhkəmə hakimiyyətinin iradəsini müəyyən formalarda ifadə edən hüquqi sənəd başa düşülməlidir.

Hüquq ədəbiyyatında “məhkəmə aktı” termini tez-tez istifadə olunur. Y.A.Tixomirov və İ.V.Kotelevskaya qeyd edirlər ki, “məhkəmələrin bütün qərarları onlara xas xüsusiyyətlərinə görə geniş mənada “hüquqi aktlar” anlayışı ilə əhatə oluna bilər” (Tikhomirov, Kotelevskaya, 1999: 228-229).

Məhkəmə aktı termini geniş və dar mənada başa düşülür. Geniş mənada məhkəmə aktı dedikdə məhkəmə qətnaməsi, məhkəmə qərardadı, məhkəmə çağırışı, bildirişi, protokolu, sorğusu, öz-özünə etiraz ərizəsi, yekun aktlar, təşkilati-funksional, yardımçı, həmçinin xidməti xarakterli aktlar başa düşülür. Beləliklə, məhkəmə aktı geniş mənada məhkəmə tərəfindən çıxarılan, hakimiyyət xarakteri daşıyan və məhkəmə hakimiyyətinin hüquqi nəticə əldə etməyə yönəlmiş yekun, təşkilati, funksional, yardımçı hərəkətlərini təsbit edən hüquqi aktlardır.

Dar mənada məhkəmə aktı qanunla müəyyən edilmiş qaydada məhkəmə tərəfindən qəbul edilmiş, işə baxılması və həlli ilə bağlı dövlət səlahiyyətli qərarı özündə əks etdirən hüquqi aktdır. Bu aktı məhkəmə-hüquqi akt adlandırmaq məntiqlidir, çünki o, daha çox məhkəmənin hüquqi fəaliyyətinin nəticələri ilə bağlıdır. “Məhkəmə hüquqi aktı” adı məhkəmənin bu aktının məhz mübahisəli hüquq münasibətlərinin iştirakçıları üçün dəqiq hüquqi nəticələr doğurduğunu vurğulayır. Məhkəmənin hüquqların və qanuni mənafelərin müdafiəsi üzrə fəaliyyətinin nəticələri məhkəmə aktlarında dəqiq ifadə olunur, onların vasitəsilə hüququn mübahisəliliyi aradan qaldırılır və hüquq subyektlərinin öz subyektiv hüquqlarını həyata keçirmələri üçün şərait yaranır.

“Məhkəmə aktı” anlayışı toplu anlayış olmaqla ümumiləşdirici kateqoriyaya aiddir. Müxtəlif işlərə baxılarkən müxtəlif növlü məhkəmə aktları çıxarıldığından bu aktların müxtəlif əsaslara (kriteriyalara) görə təsnifatı da mühüm əhəmiyyət kəsb edir. Onlardan bəzilərinə diqqət yetirək.

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsinə görə, məhkəmələr baxılmış işlər üzrə Azərbaycan Respublikası adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar (bundan sonra — qərarlar) çıxarırlar (2).

Hüquqi əhəmiyyətindən asılı olaraq aşağıdakıları ayırmaq lazımdır: məhkəmə hüquq-tətbiqi aktları, məhkəmə təfsir aktları və məhkəmə hüquqyaradıcı aktları (Dzhura, 2009: 12-13).

- məhkəmə hüquq-tətbiqi aktları (bu tip aktlarda fərdi hüquqi tənzimləmənin həyata keçirildiyi fərdi səlahiyyətli göstərişlər var) (məsələn, hökm, qətnamə); Məhkəmə hüquq tətbiqi aktları dövlət hakimiyyətinin − məhkəmə orqanlarının rəsmi sənədləridir, hansı ki, özündə hakimiyyət xarakterli fərdi göstərişləri əks etdirir, onun vasitəsi ilə fərdi hüquqi tənzimləmə gerçəkləşir.
- məhkəmə təfsir aktları (hüquqi göstərişlərin mənasını açmaq məqsədi ilə ali məhkəmə orqanları tərəfindən təfsir nəticəsində qəbul edilir; qanuni göstərişlərin məzmunu və fəaliyyətinə dair təsviri (təsvir, məlumatlandırıcı) hökmlərin xarici ifadə formaları kimi çıxış edir) həm normativ, həm də fərdi) (məsələn, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun qərarları). Məhkəmə təfsir aktları – yuxarı instansiya məhkəmələri tərəfindən rəsmi normativ təfsir nəticəsində qəbul edilən, ümumi və məcburi xarakter daşıyan, özündə hüquq normalarının mənasının izahını əks etdirən və dəfələrlə tətbiq edilmək üçün nəzərdə tutulan (həmin normanın qüvvədə olduğu müddətdə) rəsmi sənədlərdir. Məhkəmə rəsmi təfsir aktlarında normativ hüquqi aktlarda olan hüquq normaları konkretləşdirilir.
- məhkəmə hüquqyaradıcı aktları (bu aktlar normativ hüquqi aktlarla məhkəmə təfsir aktları arasında aralıq olmaqla, məhkəmə aktları sistemində xüsusi yer tutur, çünki məhkəmələr mübahisələrin həlli əsas funksiyası ilə yanaşı, normativ nəzarət funksiyasını da yerinə yetirir), (məsələn, normativ hüquqi aktların qüvvədən düşmüş hesab edilməsi ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları).

Məhkəmə hüquq yaradıcı aktlarına Azərbayan Respublikasının Konstitusiya Məhkəməsi qərarlarının məhkəmə hüquqyaradıcı aktlarında xüsusi statusu ondadır ki, onda normativ hüquqi aktların bütünlüklə və ya hissəvi ləğvinə baxılır. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 89-cu maddəsində normativ hüquqi aktın qüvvəsinin itirilməsi halları nəzərdə tutulmuşdur. Həmin Qanunun 89.1.3-cü maddəsinə görə onlardan biri də normativ hüquqi aktın (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-3-cü və 6-cı, 7-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edilməsidir. Qanunun 89.2-ci maddəsinə görə, bu Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya

Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir (4).

Bu hüquqi aktın xüsusiliyi ondadır ki, onlar digər məhkəmlərdə olan kimi hüquqla bağlı konkret mübahisə zamanı qəbul edilmir, onlar konstitusiya nəzarəti ilə bağlıdır. Konstitusion nəzarət institutu çox da uzaq olmayan keçmişdə, yəni 19-cu əsrin əvvəllərində ABŞ-da yaradılmışdır. Bu gün ABŞ-da konstitusiya nəzarətini ilkin olaraq başqa məqsəd üçün yaradılmış ABŞ Ali Məhkəməsi həyata keçirir (Chirkin, 1997: 309).

Qeyd etmək lazımdır ki, AR Konstitusiya Məhkəməsinin bir sıra qərarlarında hüquq normasına yaradılması və formalaşması ilə bağlı başlanğıcları görmək mümkündür.

Normativ aktları etibarsız hesab edən məhkəmə qərarları pozitiv hüquqa obyektiv təsir edir. Məhkəmə aktları sistemində xüsusi yeri dövlət orqanlarının hərəkət və ya hərəkətsizliyi, yerli icra hakimiyyəti və yerli özünüidarə orqanlarının qeyri-normativ aktlarının mübahisələndirilməsi ilə bağlı aktlar tutur. İcra hakimiyyəti orqanları və yerli özünüidarə orqanları üzərində məhkəmə nəzarətini yerinə yetirməklə məhkəmə orqanları bu orqanların fəaliyyətinə və onlar tərəfindən qəbul edilən aktlara hüquqi qiymət verir.

Qeyd etmək lazımdır ki, məhkəmənin hüquq yaradıcı aktı təsnifatı mübahisəlidir, əksər müəlliflər tərəfindən də dəstəklənmir. Belə ki, həmin mövqeyin tərəfdarları hakimiyyət bölgüsünün olması, ölkədəki hüquq sisteminin roman-german hüquq sistemi olmasına əsaslanır. Belə ki, bu mövqeyin tərəfdarları qeyd ki, bu hakimiyyət bölgüsünün əsas prinsipi, yəni qanunverici qanun yaradır, məhkəmə qanunu tətbiq edir prinsipi ilə bağlıdır.

Bir tərəfdən isə qeyd edilir ki, AR MPM-in 13.4-cü maddəsinə görə, barəsində mübahisə edilən hüquq münasibətlərini tənzimləyən hüquq norması olmadıqda, məhkəmə analoji münasibətləri tənzimləyən hüquq normalarına müraciət edir (6).

Həmin Məcəllənin 13.5-ci maddəsinə görə, belə normalar da olmadıqda, məhkəmə öz aktında Azərbaycan Respublikası hüquq qaydalarının ideya və ümumi prinsiplərini əsas götürür.

Hesab edirəm ki, məhkəmənin mülki mübahisələri həll edən zaman hüququn analogiyasını tətbiq etməsi bir növ hüquq yaradıcılığı hesab edilə bilər.

Sahəvi mənsubiyyətinə görə (məhkəmə icraatına görə) aşağıdakı məhkəmə aktları fərqləndirilir:

- Konstitusiya məhkəmə icraatı məhkəmə aktları (qərar, qərardad);
- Cinayət məhkəmə icraatı aktları (hökm, qərar);
- Mülki məhkəmə icraatında aktlar (qərardad, qətnamə, əmr, kassasiya icraatında qərar);
- İnzibati icraat məhkəmə aktları (qərardad, qərar).

Qeyd etmək lazımdır bu bölgü hüququn və qanunvericiliyin sahəvi bölgüsünə görə obyektiv olaraq mövcuddur. Bu səbəbdən, həmin təsnifat mübahisəli sayılmır.

Məhkəmə aktları onların məhkəmə icraatında olan rolundan asılı olaraq yekun, köməkçi, təşkilati, xidməti və sair kimi də qruplaşdırılır. Bu təsnifat bir çox müəlliflər tərəfindən müxtəlif variantlarda aparılır.

Məsələn, S.K.Zaqaynova məhkəmə aktlarını ədalət mühakiməsində yekun məqsədin realizəsindən asılı olaraq yekun (məsələn, məhkəmə əmri, qətnaməsi, qərardadı), aralıq (məsələn, məhkəmə qərardadı) olmaqla qruplaşdırır.

Birinci instansiya məhkəməsində yekun məhkəmə aktı kimi məhkəmə əmri, qətnaməsi, (qərarı), qərardadı çıxış edir.

Apellyasiya məhkəməsində yekun məhkəmə aktı inzibati icraat zamanı qərar, qərardad, mülki icraatda apellyasiya məhkəməsində qərar, qərardad, kassasiya instansiya məhkəməsində qərar, qərardad çıxış edir.

Aralıq məhkəmə aktları ədalət mühakiməsi həyata keçirilən zaman qarşıya çıxan məsələlərin həlli məqsədilə qəbul edilir. Məhkəmə qərardadı işlərə baxılması zamanı bütün instansiyalarda, bütün növ məhkəmə icraatlarında qəbul edilir (Zagaynova, 2007: 109, 113).

Məhkəmə aktlarının qeyri-ənənəvi təsnifatını, yəni aktın təyinat məqsədindən asılı olaraq, Y.A.Şirokopoyas təklif etmişdir. Onun bölgüsü əsasında məhkəmə aktları üç növə bölünür: 1) ədalət mühakiməsi aktları bura məhkəmə qətnaməsi daxil edilir. 2) məhkəmənin işi mahiyyəti üzrə

həll etməyən aktları (məhkəmə qərardadı); 3) məhkəmənin digər aktları (təşkilati və digər xarakterli) (Shirikopoyas, 2006: 24-28).

Elə məhkəmə aktları vardır ki, onlar ədalət mühakiməsi aktı sayılmır, lakin məhkəmə aktları sisteminə aiddir. Bunlara daxildir: məlumat məktubları, məhkəmə təcrübəsinin nəzərdən keçirilməsi, hansı ki, məhkəmə orqanlarının və digər hüquq subyektlərinin fəaliyyətində köməkçi xarakter daşıyır.

Məhkəmə aktları hüquqi formasından asılı olaraq fərqlidir. Belə ki, işlərə baxan birinci instansiya məhkəmələri qərarlar, qətnamə, qərardad, cinayət işləri ilə bağlı hökm çıxarır, apellyasiya instansiya məhkəməsi qətnamə, qərardad, qərar, işlərə kassasiya qaydasında baxan məhkəmə qərardad, qərar qəbul edir.

Ölkəmizdə məhkəmə sisteminə uyğun olaraq məhkəmənin mövqeyinə görə aşağıdakı məhkəmə aktlarını fərqləndirmək olar:

Ali instansiya məhkəmələrinin aktları − bura AR Konstitusiya Məhkəməsinin Plenum qərarları, Ali Məhkəmənin Plenum qərarları daxildir.

Birinci instansiya və apellyasiya instansiya məhkəməsinin aktlarından verilən şikayətlə əlaqədar müvafiq olaraq apellyasiya instansiya məhkəməsinin, kassasiya instansiya məhkəməsinin qərar qəbul etməsi.

Birinci instansiya məhkəmələrinin aktları.

Hüquqi informasiyanın çatdırılma məqsədindən asılı olaraq:

Məhkəmənin normativ aktlarına rəsmi təfsir aktlarını qeyd etmək olar, hansı ki, qeyri-müəyyən subyektlər və hallar dairəsinə aid olan ümumiləşdirici mövqe əks etdirir. Məsələn, Konstitusiya Məhkəməsinin Plenum qərarları digər məhkəmələr üçün məcburidir.

Fərdi məhkəmə aktları, məsələn hökm konkret bir işdə müəyyən şəxlər barəsində çıxarılır. Məsələn konkret mübahisə üzrə məhkəmənin yekun qərarı, kazual təfsir aktı.

Təsnifat meyarı kimi aktların yerinə yetirdiyi funksiyalara görə aşağıdakı növləri qeyd etmək olar:

1) əsas məhkəmə aktları məhkəmə qərarları və hökmləridir. Onlar hüquqi mübahisəni mahiyyəti üzrə həll etdiklərinə görə xüsusi rola malikdirlər;

2) yardımçı məhkəmə aktları − məhkəmənin müxtəlif hərəkətlərini müşayiət edən aktlar. Onlar hüquqi işə baxılması prosesində yaranan müəyyən məsələlər (məsələn, işin təxirə salınması, dayandırılması, məhkəmə icraatına xitam verilməsi) üzrə məhkəmənin qərarlarını təsbit edir. Cinayət prosesində onlar qərarlar, mülki prosesdə isə qərardad formasında qəbul edilir;

3) əlavə aktlar − məhkəmə icraatını müşayiət edən məhkəmə aktları (məsələn, məhkəmə iclasının protokolu). Bu məhkəmə aktlarının əhəmiyyətini azaltmağa heç bir əsas yoxdur, çünki onlar bəzən işin nəticəsinə təsir edən məlumatları ehtiva edir.

Məhkəmə aktı qəbul edilmə qaydasına görə tək hakim və kollegial hakimlər tərəfindən qəbul edilən aktlar fəqlənir (Tuzov, 2011: 103).

AR MPM-in 12.1-ci maddəsinə görə, mülki işlərə və kommersiya mübahisələrinə birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına baxılır. Həmin Məcəllənin 12.2-ci maddəsinə görə, apellyasiya qaydasında işlərə sədrlik edənin və digər iki hakimin, kassasiya qaydasında isə sədrlik edənin, iki və ya daha çox hakimin iştirakı ilə baxılır (6).

Kollegial tərkibdə çıxarılan məhkəmə aktları öz əhəmiyyəti və hüquqi mürəkkəbliyi ilə seçilir.

Məhkəmə aktlarının təsnifat əsaslarından biri də onun icrası məsələsi ilə bağlıdır. Hüquq elmində "məhkəmə aktının icrası" anlayışı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Məhkəmə aktının icrası dedikdə, N.B.Zeyder qeyd edir ki, bu aktın məcburi icrasının mümkünlüyünü başa düşmək lazımdır, yəni, xüsusi dövlət orqanları tərəfindən məhkəmə aktına görə borclu olan şəxsin iradəsi əleyhinə məhkəmə aktının icrasına yönəlmiş bir sıra tədbirlərin həyata keçirilməsidir (Zeyder, 1966: 170).

A.F.Kleynman hesab edirdi ki, hətta "ən yaxşı qərar icra olunmazsa, bütün mənasını itirir və kağız parçasına çevrilir" (Kleynman, 1937: 76).

O.V.İsaenkova hesab edir ki, icra edilmə anlayışı öhdəlik anlayışından daha geniş anlayışdır, özünə yeni fəaliyyət növünü (icra prosesini) və yeni hüquq münasibəti subyektlərini (icra məmurlarını) daxil edir. Burada keçid anı kimi məhkəmə aktı deyil, məhkəmə aktının qüvvəyə minməsi çıxış edir (12).

Məhkəmələr çıxardıqları qərarların icrası məsələsinə biganə qala bilməzlər. Bu baxımdan onların qərarlarının icrasına görə məhkəmənin məsuliyyət daşıması məqsədəuyğun və nəzəri cəhətdən əsaslandırılmışdır (Nevskiy, 2005: 3-18).

Bununla bağlı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsində təsbit olunmuşdur ki, məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir, habelə məhkəmə qərarlarının icra olunmaması qanunla müəyyən olunmuş məsuliyyətə səbəb olur (14).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir çox qərarlarında formalaşdırdığı hüquqi mövqeyinə görə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində müəyyən olunmuş «məhkəmə araşdırması hüququ» təkcə məhkəməyə müraciəti və yekun məhkəmə aktının qəbulunu deyil, həm də (və mütləq qaydada) məcburi qüvvəyə malik yekun məhkəmə aktının icrasını nəzərdə tutur. Məhkəmə, Burdov Rusiyaya qarşı iş üzrə Qərarında həmçinin qeyd etmişdir ki, məhkəmə qərarının icrasının gecikdirilməsinə xüsusi hallarda haqq qazandırıla bilər, lakin bu gecikdirmə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə qorunan hüquqların mahiyyətinə xələl gətirməməlidir (15).

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununun 26-cı maddəsinə görə, icra sənədlərinin vaxtında və düzgün icra edilməsinə nəzarət icra qurumunun rəhbəri və məhkəmə tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir (16).

Göründüyü kimi qanunvericilikdə məhkəmənin öz səlahiyyətləri daxilində icraya nəzarət etməsi öz əksini tapıb. Hesab edirəm ki, məhkəmə tərəfindən eyni vaxtda həm mübahisələrə baxılaraq həll edilməsi, həm də onların icrasına sözün tam mənasında nəzarət etməsi praktiki baxımdan mümkün deyil.

İcra edilmə əlamətinə görə özünü icra edən məhkəmə aktlarını və ixtisaslaşdırılmış orqanlar tərəfindən icra edilən məhkəmə aktlarını ayırmaq olar (Solovyeva, 2010).

Özünü icra edən məhkəmə aktları bir sıra əlamətlərə malik olmalıdır: məhkəmə aktının qərar hissəsində tənzimləyici hüquq norması olmalıdır; məhkəmə aktı hüquq subyektləri tərəfindən icra olunmaq qabiliyyətinə malik olmalıdır; məhkəmə aktı yeni aktın verilməsini tələb etmədən birbaşa qüvvəyə malik olmalıdır. Bu aktlara misal olaraq Konstitusiya Məhkəməsinin Plenum qərarlarını misal göstərmək olar.

İxtisaslaşdırılmış orqanlar tərəfindən icra edilən məhkəmə aktları elə məhkəmə aktlarıdır ki, onların icrası üçün ixtisaslaşdırılmış dövlət orqanları tərəfindən müəyyən fəaliyyətlərin həyata keçirilməsi zəruridir. Bu əsasa görə həmin məhkəmə aktlarını iki qrupa bölmək olar:

İcra vərəqi verilməsindən asılı olaraq:

1. İcra edilməsi üçün icra vərəqi verilməyən məhkəmə aktları, məsələn buna nümunaə kimi məhkəmə əmrini göstərmək olar, hansı ki, bu da əslində icra sənədidir. İstisna kimi isə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını göstərmək olar, hansı ki icra vərəqi verilmir.
2. İcrası üçün icra vərəqi verilən məhkəmə aktları. Məsələn borcun ödənilməsi, ziyann ödənilməsi ilə bağlı olan məhkəmə aktları ilə bağlı icra vərəqinin verilməsi.

Məhkəmə müdafisəsi hüququnun reallaşması üçün məhkəmə aktı hansı məhkəmə sistemi tərəfindən qəbul edilməsindən asılı olmayaraq mütləq icra edilə bilmək tələbinə cavab veriməlidir. Aşağıdakı tələblərə cavab verməsi məhkəmə aktlarının icrasını təmin edə bilər:

- Dövlət onun üçün uyğun olan üsullarla məhkəmə aktının icrasını təmin etməlidir;
- Məhkəmə aktının tam realizəsi üçün lazım olan hallarda qanunvericilik tədbirləri görməlidir;
- Məhkəmə qərar qəbul edən zaman onun mövcud qanunvericilik çərçivəsində icrası imkanını nəzərə almalıdır.

## Nəticə

Beləliklə, yuxarıda qeyd edilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, bu təsnifatlar tam deyil, çünki ictimai münasibətlərin inkişafı, şübhəsiz ki, məhkəmə aktları sisteminə təsir göstərir, onlarda yeni növlərin və onlar arasında yeni əlaqələrin meydana çıxmasını şərtləndirir. Bu baxımdan, məhkəmə aktlarının yeni fərqli təsnifat meyarları da yaranmağa davam edir.

## Ədəbiyyat

1. Tikhomirov, Y.A., Kotelevskaya, I.V. (1999). Pravovyye akty. M., s.228-229.
2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanunu. https://www.e-qanun.az/framework/3933
3. Dzhura, V.V. (2009). Pravovyye akty organov sudebnoy vlasti Sibirskiy yuridicheskiy vestnik.
№ 2 (45), s.12-13.
4. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu. https://www.e-qanun.az/framework/21300
5. Chirkin, V.Ye. (1997). Osnovy Sravnitel'nogo gosudarstvovedeniya. Izdatel'skiy dom «Artikul'», s.309.
6. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. https://www.e qanun.az/framework/46945
7. Zagaynova, S.K. (2007). Sudebnyye akty v mekhanizme realizatsii sudebnoy vlasti v grazhdanskom i arbitrazhnom protsesse. M., s.109, 113.
8. Shirokopoyas, Yu.A. (2006). Akty suda obshchey yurisdiktsii ob okonchanii proizvodstva po delu bez prinyatiya sudebnogo resheniya: avtoref. dis. kand. yurid. nauk. Krasnodar, s.24-28.
9. Tuzov, N.A. (2011). Osnovy teorii sudebnykh aktov v Rossiyskoy Federatsii: Monografiya, 253 s, s.103.
10. Zeyder, N.B. (1966). Sudebnoye resheniye po grazhdanskomu delu. M.: Izd. Yurid. lit., s.170.
11. Kleynman, A.F. (1937). Grazhdanskiy protsess: Uchebnik dlya yuridicheskikh shkol. M., s.76.
12. Isayenkova, O.V., Grishina, Ya.S. Sudebnyye akty po delam, voznikayushchim iz publichnykh pravootnosheniy: zakonnaya sila i ispolnimost'. http://www.portal-law.ru/articles/inoe/ 2521/
13. Nevskiy, I.A. (2005). Ispolnimost' postanovleniy sudov obshchey yurisdiktsii i arbitrazhnykh sudov v kontekste zadach grazhdanskogo sudoproizvodstva: dissertatsiya kandidata yuridicheskikh nauk. Saratov, s.3-18.
14. Azərbaycan Respublikası Konstitusiyası. https://www.e-qanun.az/framework/897
15. Burdov Rusiyaya qarşı iş üzrə 2002-ci il 7 may tarixli Qərar, § 35. https://aihmaz.org/madd%C9%99-13-6-pr-1-1-%E2%84%9633509-04-burdov-rusiyaya-qarsi-15-yanvar-2009-cu-il/
16. “İcra haqqında” Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/1406
17. Solov'yeva, T.V. (2010). Klassifikatsiya sudebnykh aktov po kriteriyu ispolnimosti. Kazanskiy Sotsial'no-Gumanitarnyy Vestnik, №1 (1).

Göndərildi: 20.12.2022 Qəbul edildi: 18.03.2023